www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-01 (1762) 16 yanvar 2023-cü il



## Dördüncü sosial islahatlar paketi 2 milyona yaxın vətəndaşı əhatə edəcək

**Müavinət və təqaüdlər üzrə ödənilən illik vəsaitdə son beş ildə beş dəfədən çox artım baş verib**

səh. 2

### “Heydər Əliyev İli” çərçivəsində ilk tədbir keçirilib

səh. 2

### ATU-nun daxili intizam qaydalarını pozan əcnəbi tələbələr cəzalandırılıb

səh. 3

### İxtisasını ən yaxşı tanıdanlara kubok verilib

səh. 3



### ATU-nun rektoru klinik bacarıqlar üzrə imtahanları izləyib

Tibb ixtisası üzrə 2-ci kursda oxuyan 744 tələbənin klinik bacarığı yoxlanılır

səh. 2

### Nur şöbəsi

*Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinə insanlar ümidlə gəlir*

səh. 4

### Tənəffüs infeksiyalarından necə qorunaq?

*Ağciyər xəstəlikləri kafedrasının müdiri soyuq aylarda kəskinləşən xəstəliklərlə bağlı suallara cavab verib*

səh. 3



### “Böyüyəndə qəhrəman olacağını hiss etmişdim”

İlqar Zeynallının yoxluğu nə qədər ağır olsa da, Vətən uğrunda şəhidlik zirvəsinə ucalması hər kəsi qürurlandırır

səh. 6

# Dördüncü sosial islahatlar paketi 2 milyona yaxın vətəndaşı əhatə edəcək

## Müavinət və təqaüdlər üzrə ödənilən illik vəsaitdə son beş ildə beş dəfədən çox artım baş verib

**2019-cu ildən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dərin sosial islahatlar aparılır və dörd sosial islahatlar zərfi qəbul edilib. 2018-ci illə müqayisə etdikdə, sosial müavinət və təqaüdlər üçün ayrılan illik vəsait o zaman 300 milyon manat idisə, artıq həmin məbləğ 1,5 milyard manatı ötür ki, bu da həmin istiqamətə ayrılan vəsaitlərdə 5 dəfədən çox artım deməkdir.**

Bu il yanvarın 5-də və 13-də Prezidentin imzaladığı fərman və sərəncamlarla ölkə üzrə minimum əməkhaqqı qaldırıldı. Dövlət büdcəsi sektorunda çalışan bütün kateqoriyadan olan vahid tarif cədvəli üzrə əməkhaqqı alanların maaşlarının 15 faiz artırılması təmin olundu.

Eyni zamanda, özəl sektorda çalışan 450 min vətəndaşımızın da əməkhaqqının artırılmasına real şərait yaradıldı. Prezidentin Sərəncamı ilə pensiyaların indeksasiya edilməsi təxminən bütün növdən olan pensiyaların 15 faiz artmasına imkan verdi. Pensiyanın minimum məbləğinin 240 manatdan 280 manata qaldırılması ilə bağlı Prezidentin hökumətə verdiyi tapşırıq da icra olunandan sonra bütün kateqoriyalardan olan təxminən 100 mindən çox pensiyaçının təqaüdünün minimum məbləği artırılacaq.

Prezidentin yanvarın 13-də verdiyi fərman və sərəncamlar 25-dən çox istiqamətdə həssas qruplardan olan vətəndaşlarımızın sosial təminatının yaxşılaşmasına səbəb olacaq. Burada müxtəlif növ müavinətlərin, Prezident təqaüdlərinin, tələbə təqaüdlərinin, elmlər doktoru, elmlər namizədi elmi dərəcəsi olan pensiyaçıların və Əməkdar artist, Xalq artisti fəxri adı olanların, Əməkdar jurnalist, Əməkdar elm xadimi, Əməkdar həkim, Əməkdar təhsil işçisi və digər kateqoriyadan olan vətəndaşlarımızın da pensiyalarının artırılmasına şərait yaradılacaq. Bütövlükdə dördüncü sosial islahatlar paketi 2 milyona yaxın vətəndaşımızın sosial rifah halına müsbət təsir göstərəcək, 750 milyon manatdan çox əlavə büdcə vəsaiti tələb edəcək.

Sərəncamlara əsasən, həmçinin şəhid ailələri üçün verilən Prezident təqaüdündə çox ciddi artımlar var. Digər istiqamət uşaqlara verilən müavinətlərlə bağlıdır. Uşağın doğulmasına görə verilən birdəfəlik müavinətin 300 manatdan 500 manata qaldırılması, dəfn müavinətlərinin məbləğinin və çoxuşaqlı ailələrə verilən uşaq pulu müavinətinin artırılması kimi digər məsələlər uşaqların sosial müdafiəsinin gücləndirilməsinə öz töhfəsini verəcək. Bütövlükdə Prezidentin qəbul etdiyi dördüncü sosial islahatlar zərfi Azərbaycan vətəndaşının rifah halının güclənməsinə səbəb olacaq. Onu da nəzərə alsaq ki, hökumətin proqnozlarına görə, bu il ölkə üzrə inflyasiya birrəqəmli həddə düşəcək, müxtəlif istiqamətlər üzrə 15-30 faiz arasında olan artımlar vətəndaşların sosial rifahının qorunmasına ciddi töhfə verəcək.

# ATU-nun rektoru Beynəlxalq Pediatriya Assosiasiyasının prezidenti ilə görüşüb

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Beynəlxalq Pediatriya Assosiasiyasının (IPA) prezidenti, professor Ənvər Həsənoğlu ilə görüşüb. Görüş zamanı tərəflər arasında əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparılıb.**

Qonağı salamlayan professor G.Gəraybəyli ona ATU-nun fəaliyyəti barədə məlumat verib, ali məktəbin beynəlxalq əlaqələrindən, dünya universitetləri ilə münasibətlərindən danışıb. ATU-nun Beynəlxalq Pediatriya Assosiasiyası ilə əlaqələrinə toxunan rektor, gələcəkdə bu əməkdaşlığın daha uğurla inkişaf etdiriləcəyinə inamını ifadə edib.

IPA-nın prezidenti Ənvər Həsənoğlu Bakıda keçirilən I Milli Pediatriya Konqresinin nəticələri haqqında görüş iştirakçılarını məlumatlandıraraq, növbəti belə tədbirin daha geniş formatda təşkil olunacağını bildirib. Ə.Həsənoğlu ATU ilə qarşılıqlı əlaqələrin qurulmasında maraqlı olduqlarını xüsusi vurğulayıb.



Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, I Uşaq xəstəlikləri kafedrasının dosenti, pediatr Nigar Sədiyeva, Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, pediatr Erkin Rəhimov, Azərbaycan Pediatriya Cəmiyyətinin üzvü Əli Quliyev, ATU-nun Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak ediblər.

# Rektor klinik bacarıqlar üzrə imtahanları izləyib

## Tibb ixtisası üzrə 2-ci kursda oxuyan 744 tələbənin klinik bacarığı yoxlanılır



**ATU-nun rektoru, professor Gəray Gəraybəyli Tibb və sağlamlıq elmləri təhsili kafedrasında Obyektiv Strukturlaşdırılmış klinik imtahan (OSKİ) formatlı prosesin gedişi ilə tanış olub.**

Rektor OSKİ imtahanının keçirilməsi üçün yaradılan şəraitlə tanış olub, müəllim və tələbələrin fikirlərini öyrənib. İmtahan verən yerli və xarici tələbələr kursun daha effektiv keçirilməsi ilə bağlı təkliflərini səsləndiriblər.

Bildirilib ki, klinik bacarıq dərslərinin birinci bölməsi steril zonaya girişin qaydaları ilə əlaqəlidir. Bu bölmədə tələbələrə əllərin tibbi qaydada yuyulması bacarıqları, steril əlcək geyinilməsi, tibbi kombinezonların geyinib-çıxarılması, fərdi qoruyucu vasitələrdən istifadə qaydaları və ünsiyyət bacarıqları tədris olunur.

Tədrisin ikinci hissəsində isə tələbələrə dərman tətbiqləri, inyeksiya qaydaları və təməl yaşam dəstəyinin verilməsi öyrədilir. Tədris zamanı nəzəri biliklərə nisbətən praktiki bacarıqlara daha çox üstünlük verilir. Kursun sonunda isə tələbələrin qazandığı biliklər Obyektiv Strukturlaşdırılmış klinik imtahan vasitəsilə qiymətləndirilir.

Qeyd olunub ki, kafedrada OSKİ sınaqları 6 stansiya üzrə aparılır və bunlardan 4-ü dərman tətbiqlərinə aiddir. Bu semestr ərzində tibb ixtisası üzrə 2-ci kursda oxuyan 744 tələbənin klinik bacarığı yoxlanılır.

# "Heydər Əliyev İli" çərçivəsində ilk tədbir

## ATU THİK uşaqlar üçün xeyriyyə aksiyası keçirib

**Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ölkəmizdə 2023-cü il Prezident İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyev İli" elan edilib. İl ərzində Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti və digər səhiyyə qurumları tərəfindən müxtəlif sosial dəstək tədbirlərinin və xeyriyyə aksiyalarının keçirilməsi planlaşdırılır.**





Yanvarın 12-də Azərbaycan Tibb Universiteti və ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin bu qəbildən olan ilk tədbiri keçirilib. Universitetimizin əməkdaşları və tələbələrindən ibarət nümayəndə heyəti Milli Hematologiya və Transfuziologiya Mərkəzini ziyarət edib. Xeyriyyə tədbiri çərçivəsində mərkəzdə müalicə alan uşaqlar üçün Yeni il əyləncələri təşkil olunub, hədiyyələr verilib. Həmçinin Gənc Tamaşaçılar Teatrının aktyorları tərəfindən balacalara məşhur "Bremen musiqiçiləri" tamaşası nümayiş olunub.

Qeyd edək ki, tədbirin təşkilində Səhiyyə Nazirliyinin Həmkarlar Komitəsi, ATU rəhbərliyi yaxından iştirak edib. THİK sədri Qoşqar İsmayılov uşaqlara dəstək olan Gənc Tamaşaçılar Teatrının heyətinə və tədbirə ev sahibliyi edən Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Həmkarlar İttifaqı Komitəsinə də təşəkkürünü bildirib.

# Endokrinoloji aksiya keçirilib



Tədris Cərrahiyyə Klinikasında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə 2 günlük endokrinoloji müayinə aksiyası təşkil olunub.

Klinikanın cərrah-endokrinoloqu Azər Hümmətovun təşkil etdiyi aksiyada 35 nəfər müayinədən keçib. Pasiyentlərinn 33 nəfərində qalxanvari vəzin xəstəlikləri (Haşimoto tiroiditi - 25 nəfər, düyünlü ur - 7 nəfər, yarımkəskin tiroidit - 1 nəfər) aşkarlanıb. Cəmi 2 nəfərdə patologiya aşkar olunmayıb. Xəstələrdən birində şübhəli düyün müəyyən olunduğundan, onun üzərində incə iynə biopsiyası icra olunub. Aksiya iştirakçılarına analiz və ultrasəs müayinələrinin nəticələrinə uyğun olaraq, müvafiq müalicələr təyin edilib.

# Qış imtahan sessiyası davam edir

## Yaxşı nəticə üçün oxumaqdan başqa yol olmadığını hər kəs başa düşür

**Xəbər verdiyimiz kimi, Azərbaycan Tibb Universitetində 2022/2023-cü tədris ilinin payız semestrinin qış imtahan sessiyası ötən ilin 29 dekabrından başlayıb. ATU-nun İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərovanın "Təbib"in əməkdaşına bildirdiyinə görə, proses sıx və gərgin qrafiklə davam edir:**

"Hər gün imtahanlar saat 8.30-17.50 arasında keçirilir. Hər bir fənn imtahanı 40 dəqiqə çəkir. Bu müddət ərzində 200-ə yaxın tələbə imtahanda iştirak edir, biliklərini sınaqdan keçirir".

Ü.Cəfərova hər il tədrisin keyfiyyətinin artırılması istiqamətində yeni addımlar atılmasından da söhbət açıb: "Bu ildən etibarən 1-ci və 2-ci kursda oxuyan tələbələr üçün test bazasına 100 nümunəvi test yerləşdirmişik. Onlardan 10-u təkrarçılıq olmadan, yenilənmə ilə imtahana salınır, 15 sual isə internetdə yerləşdirilməyən suallar olur. Bu o məqsədlə edilir ki, tələbə əzbərçilikdən kənar olsun, kitab oxusun. Artıq hiss olunur ki, 1-ci, 2-ci kurs tələbələri ciddi şəkildə kitab oxumağa başlayıblar. Bəzi kafedralar bu məsələdə bizə yaxından kömək edir, test suallarını vaxtaşırı təzələyirlər".

İmtahan Mərkəzinin müdiri yuxarı kurs tələbələrinin verdiyi imtahanların nəticələrinə də toxunub: "Görülən işlərin və tədbirlərin nəticəsində yuxarı kurs tələbələri də aydın dərk edir ki, yalnız yaxşı oxumaqla yüksək nəticələr əldə etmək olar. Onlar arasında belə fikir formalaşmağa başlayıb ki, oxumasan, heç bir güzəşt olmayacaq. Bu günlərdə 5-ci kurs tələbələri "Daxili xəstəliklər" fənnindən imtahan verdi. Yüksək göstəricisi olanlar az oldu. Çünki tələbələr şişirtmə deyil, real qiymətlərini aldılar. Bunun isə yaxşı nəticə olduğunu deyə bilərik".

Ü.Cəfərova bəzi tələbələrin imtahan zamanı qayda pozuntularına yol verdiyini də bildirib. Tələbələrin bir-birlərinə kömək etmək faktlarının aşkar olunduğunu, pozuntuların qarşısının alınması üçün təqdimatlar yazıldığı və lazımi tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Qeyd edək ki, imtahanların fevralın 1-dək davam etməsi nəzərdə tutulub. Üzrlü səbəbdən iştirak edə bilməyənlər fevralın 6-8-də təşkil ediləcək imtahanlara qatıla bilərlər.

# Tənəffüs infeksiyalarından necə qorunaq?

## Rafiq Bayramov soyuq aylarda kəskinləşən xəstəliklərlə bağlı suallara cavab verib

**Qlobal pandemiyaya çevrilmiş yeni növ koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizə, onun simptomları, yayılması, individual müdafiə üsulları, müxtəlif yaş kateqoriyaları üçün virusun təsiri, müalicə vasitələri və digər məsələlər dünya mediasının gündəmini zəbt edib. Həkim və mütəxəssislər bu virusdan qorunmağın yolları haqqında mütəmadi tövsiyələr verirlər. Bu, maarifləndirici əhəmiyyətə malik olmaqla yanaşı, profilaktik xarakter də daşıyır.**



Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov ölkə mətbuatına açıqlamasında tənəffüs infeksiyaları ilə yoluxma hallarının spesifikası və xarakteristikasından bəhs edib. Koronavirus və digər tənəffüs infeksiyaları ilə mübarizə taktikasından danışan R.Bayramov üç istiqaməti diqqətə çatdırıb. Onun sözlərinə görə, ilk istiqamət infeksiya mənbəyinə qarşı mübarizə tədbirlərini özündə ehtiva edir: "Müvafiq tənəffüs infeksiyası olan xəstələrin izolyasiyası və hospitalizə edilərək müalicəsi vacibdir. Paralel olaraq infeksiya ocağı dezinfeksiya olunmalıdır".

Şəxsi gigiyena qaydalarına ciddi əməl etməyin, qoruyucu maskalardan istifadənin zəruriliyinə toxunan həkim, bunların infeksiyanın ötürülmə yoluna qarşı görülən tədbirlər sırasında yer aldığını vurğulayıb.

Tənəffüs infeksiyaları ilə mübarizədə üçüncü istiqaməti yoluxmuş şəxslərin xəstələnməməsi üçün orqanizmin immun qabiliyyətinin artırılması məqsədilə konkret tədbirlər görülməsi təşkil edir. Tənəffüs infeksiyalarına yoluxmaqdan qorunmağın asan olmadığını söyləyən kafedra müdiri "yoluxmuş şəxslərin az bir hissəsi xəstələnir. Bunlar, xüsusilə immun sistemini zəifləmiş insanlardır. Ona görə də bu kontekstdə orqanizmin immun statusunun rolu böyükdür", - deyə bildirib.

Mütəxəssis immun sisteminin normal olmasına bir sıra amillərin təsir göstərdiyini qeyd edib. Onun sözlərinə görə, ilk növbədə balanslaşdırılmış qidalanma, xüsusilə C vitamini ilə zəngin təbii qidaların qəbulu çox böyük əhəmiyyətə malikdir. Digər tərəfdən, normal gün rejimi, yetərli səviyyədə yuxu da vacibdir. Bunlarla yanaşı, idmanla məşğul olmaq, təmiz hava qəbulu, soyuqdan qorunmaq, stress və təşvişdən uzaq olmaq lazımdır.

# Tələbə və rezidentlər müayinə və konsiliumlarda iştirak edir

## Rasim Bayramov: Başqa yerlərdə çəkilmiş radioloji görüntüləri incələmək üçün bizə gətirirlər

**ATU-nun Tədris Cərrahiyyə Klinikasının Radiologiya şöbəsi ən müasir texnologiyalı avadanlıqları və peşəkar mütəxəssisləri ilə ölkə əhalisinə keyfiyyətli tibbi xidmət göstərir. Şöbədə yaradılan şərait, işin təşkili və burada mövcud olan daxili nizam-intizam qaydaları barədə şöbənin müdiri, Şüa diaqnostikası və terapiyası kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Rasim Bayramov qəzetimizə bunları deyib.**



Onun sözlərinə görə, burada müasir dövrə uyğun bütün radioloji müayinələr aparılmaqdadır: "Şöbəmizdə Kompüter Tomoqrafiya (KT), Maqnit Rezonans Tomoqrafiya (MRT), Dijital Rentgen, Ultrasəs və Doppler müayinələri icra edilir. Həftənin iki günü klinikanın Cərrahiyə şöbəsi ilə birgə başqa mərkəzlərdə müayinə olunmuş mürəkkəb xəstələrin konsiliumu aparılır. Həm bu müayinələrdə, həm də konsiliumlarda tələbələr, rezidentlər və gənc həkimlər yaxından iştirak edirlər. Bu da öz növbəsində tələbə və rezidentlərin istər nəzəri, istərsə də praktiki cəhətdən vərdişlərinin artırılmasında vacib rol oynayır".

Mütəxəssis qeyd edib ki, gecə saatlarında klinikada təcili müayinə olunan xəstələrin diaqnozu PACS (şəkillərin arxivləşdirilməsi və kommunikasiya sistemi) vasitəsilə distansion olaraq anında qoyulur: "Diaqnozun sürətli şəkildə qoyulması xəstənin sonrakı müalicə üsulunun seçilməsində və müalicəyə başlanılmasında vaxt itkisinin qarşısını alır. Həmçinin tərəfimizdən başqa mərkəzlərdə çəkilmiş mürəkkəb radioloji görüntülərin qiymətləndirilməsi də PACS vasitəsilə aparılır. Xəstəxanamızda çalışan cərrahlar bizə daha çox güvəndikləri üçün, xəstələrin başqa mərkəzlərdə çəkilmiş müayinələrinin görüntülərini disk vasitəsi ilə bizə təqdim edirlər. Bu şəkildə xəstələrin əməliyyat qabağı daha detallı incələnməsi tərəfimizdən icra edilir və cərrahlar ilə birgə müzakirə aparılır".

Həkim şöbədə aparılan müayinələr zamanı nadir rast gələnən çətin patologiyalarla rastlaşdıqlarını da bildirib: "Hətta bir dəfə müayinə olunan iki əkiz bacılarda dünyada 295 xəstədə qeydə alınan, "L-2- Hidroksiqlutarik Asiduriya" adlandırılan, Mərkəzi Sinir Sisteminin zədələnməsi ilə gedən metabolik patologiya aşkarladıq. Bu barədə ABŞ-da "American Journal of Medical Case Reports" jurnalında məqaləmiz də çap olundu".

R.Bayramov hər sahədə olduğu kimi, "tibbin görən gözü" adlandırılan bu sahənin də özünəməxsus çətinlikləri olduğunu bildirib: "Bizim sahənin çətinliyi, əsasən işimizin cihazlara bağlı olmasıdır ki, bəzən bu cihazlarda yaranan texniki problem səbəbindən müayinələrin aparılması mümkün olmur və işimiz dayanır. Radiologiyada istifadə olunan cihazların hər birinin öz üstünlükləri var. Maqnit Rezonans Tomoqrafiya ən müasir radioloji müayinə olduğu üçün, bu müayinə ilə istənilən patologiyanın diaqnozunu qoymağın mümkün olduğunu düşünürlər. Lakin hər bir radioloji müayinə başqa bir patologiyanın qoyulması üçün daha spesifikdir. Bəzən həkimlər hər hansı bir patologiyanın araşdırılması məqsədilə xəstəni yanlış müayinəyə yönləndirirlər. Belə olan halda, həmin xəstə öz radioloqlarımız tərəfindən düzgün müayinəyə istiqamətləndirilir və nəticədə xəstə həm əlavə xərcdən, həm də vaxt itkisindən azad olur.

Beləliklə, hesab edirəm ki, tibbi xidmətin keyfiyyətini yüksəltmək üçün ilk növbədə personalın fəaliyyətini məqsədli şəkildə təşkil etmək lazımdır. Bu da idarəçiliyin düzgün qurulmasından və icra olunmasından asılıdır".

# ATU-nun daxili intizam qaydalarını pozan əcnəbi tələbələr cəzalandırılıb

**Stomatologiya fakültəsinin IV kurs, 419 İ-1a qrup tələbəsi, Yəmən vətəndaşı Haya Salem Hashem Mehdhar universitetimizin daxili intizam qaydalarını kobud şəkildə pozub. Belə ki, o, I Müalicə-profilaktika fakültəsinin II kurs, 121 İ-2a qrup tələbəsi, Suriya vətəndaşı Mariam Shakouhi Faiz qızına qarşı zor tətbiq edib və universitetin əməkdaşını ağır şəkildə təhqir edib.**

Bu məsələ Xarici işlər üzrə dekanın təqdimatı ilə Rektoryanı Şuranın müzakirəsinə çıxarılıb və qərar qəbul olunub. Universitetin rektoru, professor Gəray Gəraybəyli əcnəbilərin və xarici vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması qaydalarını və Rektoryanı Şuranın qərarını əsas tutaraq, Haya Salem Hashem Mehdharın universitetdən xaric edilməsi, onunla bağlanmış 15.05.2019-cu il tarixli 2 nömrəli müqavilənin ləğv olunması barədə əmr imzalayıb.

Rektorun digər əmri ilə öz tələbə yoldaşına hədə-qorxu gələrək ona zor tətbiq etməyə cəhd göstərən II Müalicə-profilaktika fakültəsinin III kurs, 220 İ-5b qrup tələbəsi, Yəmən vətəndaşı Fatima Salem Hashem Mehdhar və Əczaçılıq fakültəsinin III kurs, 520 İ-1a qrup tələbəsi, Misir vətəndaşı Sherin Elshesheny Ehab Mohamed Abdelgabərə sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

Hər iki əmrin dekanlıqlar tərəfindən bütün tələbələrə çatdırılması tapşırılıb.

# İxtisasını ən yaxşı tanıdanlara kubok verilib

**İctimai səhiyyə fakültəsinin təşkilatçılığı ilə "İxtisasını tanıt" adlı müsabiqənin keçirilməsi artıq ənənə halını alıb. Növbəti müsabiqə 2022-ci ilin 22-23 dekabr tarixlərində keçirilib.**



Müsabiqədə fakültənin İctimai səhiyyə, Tibb bacısı işi, Fizioterapiya və tibbi reabilitasiya ixtisaslarında təhsil alan tələbələri iştirak edib. Layihənin məqsədi tələbələrin təhsil aldıqları ixtisasları tanıdıqları qədər tanıtması və bu tanıtıma hazırlaşarkən apardıqları araşdırmalar nəticəsində ixtisasları ilə bağlı özləri üçün sual doğuran məqamlara cavab tapmalarıdır. Müsabiqəyə 5-i İctimai səhiyyə, 9-u Fizioterapiya və tibbi reabilitasiya, 7-si Tibb bacısı işi ixtisasından olmaqla 21 qatılıb.

Münsiflər heyətinin üzvləri - fakültə dekanı, professor Anar Ağayev və dekan müavini, dosent Qalina Qəniyeva, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Yaqut Hacızadə, II Uşaq xəstəlikləri kafedrasının dosenti Fəxriyyə Məmmədova və Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun fizioterapevti Rüfət Cabbarov 3 əsas meyarı - mövzunun əhatəliliyi, elektron təqdimatın keyfiyyəti və tələbənin çıxışını qiymətləndiriblər.

Təhsil aldığı ixtisası ən gözəl şəkildə tanıdan Fateh Əsədbəyli (İctimai səhiyyə), Əlirza Cəfərov (Fizioterapiya və tibbi reabilitasiya), Rəna Cumayeva (Tibb bacısı işi) I yerə layiq görülüblər. Qalib tələbələrə kubok verilib, müsabiqə iştirakçıları isə sertifikatlarla təltif olunublar.

Müsabiqənin təşkilatçılıq işində aktivlik göstərən Fizioterapiya və tibbi reabilitasiya ixtisası üzrə III kurs tələbəsi Aytən Əlihüseynliyə fakültə dekanı sertifikat təqdim edib.

# "Həkimin effektiv nitqi və inandırma psixologiyası"

**Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə natiqlik təlimi keçirilib.**



II Müalicə-profilaktika fakültəsinin THİK sədri Zivər Hüseynova və "Təbib" İdman Klubunun sədri Qələndər Aslanovun çıxışlarından sonra Orxan Şahbaz "Həkimin effektiv nitqi və inandırma psixologiyası" mövzusunda təlimi davam etdirib. Mövzu tələbələrin böyük marağına səbəb olub. O.Şahbaz anonim sorğulara və tələbələrin verdiyi suallara ətraflı cavab verib.

THİK-in sədri Qoşqar İsmayılov çıxışı zamanı təlimin əhəmiyyətindən danışaraq, tələbələr arasında həkimliklə yanaşı, digər sahələrə həvəsin xeyli artığını bildirib. Tanınmış təlimçi Orxan Şahbazın toxunduğu mövzunun onların gələcək həyatında müstəsna rol oynayacağını qeyd edib.

Sonda II Müalicə-profilaktika fakültəsinin aktiv tələbələrinə THİK-in sertifikatları təqdim olunub.

# Xammalımız bol, dərmanımız yox

Professor deyir ki, Azərbaycanda istehlak olunan dərman vasitələrinin yalnız 5 faizi yerli istehsaldır



**Məlumdur ki, hər bir ölkənin dərman təhlükəsizliyi ərzaq təhlükəsizliyi və hərbi təhlükəsizlik qədər önəmli məsələdir. Çünki dərman təhlükəsizliyinin təmin olunmaması ağır nəticələrə gətirib çıxara bilər. Mövzunun aktuallığını və əhəmiyyətini nəzərə alıb ATU-nun Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanova müraciət etdik.**

Professor "Təbib" qəzetinə açıqlamasında bildirdi ki, yerli istehsalın təşkili, əhalinin və müalicə-profilaktika müəssisələrinin tələbatını ödəmək üçün həm yerli təbii mənbələrdən, həm də sintetik vasitələrdən istifadə etməklə dərman preparatlarının istehsalı müstəsna əhəmiyyət kəsb edir: "Ölkəmizdə dərman preparatlarının istehsalından danışarkən qənaətbəxş fikir söyləmək çətindir. Çünki bizdə istehlak olunan dərman vasitələrinin yalnız 5 faizə qədəri yerli istehsaldır. Yerdə qalan preparatlar ölkəmizə xarici dövlətlərdən idxal olunur. Bu da ölkədən valyutanın çıxmasına səbəb olur. Bundan başqa, idxal olunan bütün preparatların keyfiyyətinə nəzarəti həyata keçirmək çətinliklər törədir".

Kafedra müdiri qeyd etdi ki, son illərdə üzləşdiyimiz COVİD pandemiyası yerli dərman istehsalının nə qədər əhəmiyyət kəsb etdiyini aydın göstərdi: "Xatırlayırsınızsa, pandemiyanın əvvəlində adi dezinfeksiyaedici vasitələr, maska və s. qıtlığı müşahidə olunmağa başladı. Buna görə də yerli istehsalın təşkili çox vacibdir. Son illərdə cənab Prezidentin göstərişi ilə milli istehsalın təşkili yönündə bir sıra tədbirlər həyata keçirilir. Azərbaycanın İqtisadiyyat Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Səhiyyə Nazirliyi ölkədə dərman istehsalının vəziyyətini yaxşılaşdırmaq istiqamətində birgə tədbirlər görürlər. Lakin hələ ki vəziyyət qənaətbəxş deyil. Qeyd etmək yerinə düşər ki, ölkəmiz zəngin təbii sərvətlərə malikdir. Dərman bitkiləri, heyvan mənşəli xammallar, minerallarımız əsasında yeni dərman vasitələrinin yaradılması istiqamətində elmi tədqiqat işlərinin təşkili müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan Tibb Universitetinin də üzərinə müəyyən vəzifələr düşür. Əczaçılıq fakültəsinin ixtisas kafedralarının əməkdaşları bu işə öz töhfələrini verirlər. Belə ki, əməkdaşlar tərəfindən bir sıra yerli, məsələn, "Azərfarm MMC", "Herbaflora", "Biyan products", "Bakpharma" kimi müəssislərdə bəzi dərman vasitələri və qida əlavələri istehsalı təşkili olunub. Amma çox təəssüf ki, bu günə qədər Səhiyyə Nazirliyində qeydiyyatdan keçmiş yalnız 2 dərman preparatımız var ki, bu da azdır".

Müsahibimizin sözlərinə görə, ATU-nun Əczaçılıq fakültəsindən başqa, AMEA-nın bəzi institutlarının (Botanika, Fiziologiya, Dendrologiya və s.) əməkdaşları tərəfindən də müəyyən tədqiqatlar aparılır. Amma bu işləri gücləndirmək üçün koordinasiya, əlaqələndirmə mərkəzinin təşkili yaxşı olardı: "Bütün bu qurumların əməkdaşları tərəfindən planlı şəkildə vahid mövzu işlənərsə, hər kəs öz ixtisasına uyğun tədqiqat işləri apararsa, bu həm biz alimlərin elmi tədqiqat işlərinin təcrübəyə tətbiqinə, həm də yerli istehsalın qurulmasına ciddi töhfə olardı".

T.Süleymanov vurğuladı ki, dünyanın aparıcı şirkətlərinə bizim kimi əhalisi az olan ölkələr dərman istehsalı baxımından o qədər də cəlbedici görünmür: "Biz yalnız öz gücümüzlə, yəni dövlətin dəstəyi ilə dərman istehsalı sahəsində müvafiq beynəlxalq standartlara cavab verən müəssisələr yarada bilərik. Nəticədə, ölkəmizdə istifadə etməklə yanaşı, dərman preparatlarını xaricə ixrac da edə bilərik. Bunun üçün böyük investisiyalar lazımdır. Çünki hal-hazırda dərman vasitələrinin istehsalını həyata keçirmək üçün yaradılan müəssisələrə dair çox ciddi tələblər var. İlk növbədə beynəlxalq standart olan "Etibarlı İstehsalat Təcrübəsi" (GMP) tələblərinə uyğun müəssisələr qurulmalıdır".

Son illərdə Rusiya, İsrail və İranın əczaçılıq şirkətləri tərəfindən ölkəmizdə bəzi müəssisələrin qurulduğuna diqqət çəkən professor, gələcəkdə dövlətimizin gücü ilə bu problemin də öz həllini tapacağına və milli dərman sənayemizin təşəkkül tapacağına inandığını ifadə etdi.

**İnsanların gözünə işıq, nur bəxş etmək hər həkimə nəsib olmur. Qurban İsmayılov məhz belə həkim-oftalmoloqlardandır. Onun rəhbərlik etdiyi Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinin qarşısında həmişə növbədə dayanan pasiyentləri görmək olar. Ölkəmizin hər yerindən bu şəfalı əllərin sahibinə müraciət edirlər. Reportaj üçün üz tutduğumuz şöbədə pasiyentlər müayinə olunur, dəqiq diaqnoz qoyulur, sonra müalicə aparılır, ehtiyac olduqda isə əməliyyat icra edilir.**



# Nur şöbəsi

## Tədris Cərrahiyyə Klinikasının Oftalmologiya şöbəsinə insanlar ümidlə gəlir

Şöbə müdiri son zamanlar quru göz sindromunun çoxaldığını bildirir: "Bu, oftalmologiyada ən böyük problemlərdən biridir. Belə xəstələrdə daimi diskomfort, qızartı, qaşınma, gözdə batma və quruluq müşahidə olunur. Tam müalicəsi olmadığı üçün nəmləndirici damlalardan, yeni texnoloji metodlar tətbiq etməklə, gözün aşağı yaş nöqtələrinə ucu qapalı lakrimal punktlardan istifadə edirik. Bu, mayeni yaş yollarına keçməyə qoymur, gözü həmişə nəmli vəziyyətdə saxlayır. Bir sözlə, lakrimal punktlarla yaş yollarını genişləndirmək mümkün olur".





Nəticələrin qənaətbəxş olduğunu deyən Q.İsmayılov, bizimlə söhbət edə-edə pasiyentlərini müayinədən keçirir. Firəngiz Qarayeva klinikaya təkrar üz tutan pasiyentlərdəndir. Hər iki gözünün görmə qabiliyyəti zəif olduğundan, öncə biri əməliyyat olunub. Özünü yaxşı hiss edir. Əməliyyat olunan gözü ilə artıq yaxşı gördüyünü və heç bir narahatlığı olmadığını deyir. İndi həkimin o biri gözünü əməliyyat edəcəyini bildirir. F.Qarayeva bu əməliyyatın da uğurlu olacağına, problemdən biryolluq qurtulacağına əmindir.

Nailə Abbasova isə Gəncədən gəlib. O, 10 yaşlı oğlu Muxtarı müayinəyə gətirib. Deyir ki, qəflətən oğlunun gözündə çəplik əmələ gəlib. Orada mütəxəssislərə göstərib müalicə etdirsə də, nəticəsi olmayıb. Məsləhət görüblər ki, Qurban İsmayılova müraciət etsin.

Həkim müayinə etdikdən sonra M.Abbasovun müalicəyə deyil, əməliyyata ehtiyacı olduğunu deyib. Bundan sonra balacada çəpliyin aradan qalxacağını və görmə qabiliyyətinin bərpa olunacağını bildirib.

Şöbənin həkim-oftalmoloqu Aytən Eyvazova da pasiyentlərin müayinəsi ilə məşğuldur. Həkim, adının açıqlanmasını istəməyən pasiyentlərdən birinin keratokonus xəstəsi olduğunu qeyd etdi. Azərbaycan isti iqlim qurşağına malik olduğundan bu xəstəliyin geniş yayıldığını diqqətə çatdırdı: "Xəstəlik zamanı hər hansı bir səbəbdən, genetik-xroniki allergik və ya quru göz sindromu nəticəsində buynuz qişada baş verən nazilmə müşahidə olunur. Nazilmənin nəticəsi olaraq görmə keyfiyyəti itir, görmə itiliyi azalır və nəticədə buynuz qişada qabarma, dikləşmə baş verir. Amma buynuz qişanın qalınlığı normal halda 520-550 mk götürülür. Keratokonus xəstəliyinin ən dürüst diaqnostikasını korneal topoqrafiya vasitəsi ilə qoymaq mümkündür. Müalicəsi isə yalnız əməliyyat yolu ilə mümkündür. Belə xəstələrdə ilkin mərhələlərdə transepitelial və ya standart kross-linkinq əməliyyatı icra olunur. Sonra isə eyni etaplı kross-linkinq və korneal həlqə əməliyyatı aparılır. Buynuz qişanın vəziyyətindən asılı olaraq - yəni buynuz qişa qlobuslaşır və ya optik hissə bulanırsa - keratoplastika əməliyyatına ehtiyac yaranır. Müasir oftalmologiyada keratokonus xəstəliyinin müalicəsi zamanı trifokal və torik iollardan da istifadə edirik".

A.Eyvazova bu linzaların gözün içərisinə implantasiya olunduğunu, trifokalın uzaq, orta, yaxın məsafəni, torik hissənin isə keratokonusun yaratdığı astiqmatizmi korreksiya etdiyini bildirdi.

Şöbədə gənc bir qız da diqqətimizi çəkir. Öyrənirik ki, Xaçmazdan gələn 18 yaşlı Lalə Əliyevanın gözlərinin görməsi 9 faiz olub. Bu il oktyabrın 21-də əməliyyat edilib. İndi təkrar müayinəyə gəlib. Müayinənin inanılmaz nəticəsini biz də eşidirik: Görmə yüz faiz bərpa olunub! Lalənin isə sevincinin həddi-hüdudu yoxdur.

Məlum olur ki, belə sevincli anlar bu şöbədə tez-tez yaşanır. Xəstələrin ümid yeri olan həkimlərimizə uğurlar arzulayıb, xoş təəssüratla şöbədən ayrılırıq.

**Qabil ABDULLAYEV**

# Dünya Mielodisplastik Sindromu nədir?

**"İlk dəfə 1953-ci ildə Blok tərəfində Mielodisplastik Sindrom barəsində bəhs edilmiş və o, Preleykemiya adlandırılmışdır. Lakin bu xəstəlik haqda 1982-ci ildə fransız və ingilis tədqiqatçıları tərəfindən MDS - Dünya Mielodisplastik Sindromu termini irəli sürülmüş və təsnifatı verilmişdir". Bu fikirləri ATU-nun Tədris Terapevtik Klinikasının Hematologiya şöbəsinin həkim mütəxəssisi Ələmdar Cəfərov söyləyib.**



O, bu xəstəliyin yaranma səbəblərindən danışarkən bildirib ki, Myelo Displaziya – sümük iliyində hüceyrələrin görüntü və morfologiyasının anormal, qan hüceyrələrinin natamam və ya keyfiyyətsiz yetişməsi nəticəsində əmələ gələn sindromdur. Bu xəstəliyə orta rastgəlmə yaşı isə 76-dır: "MDS-in əmələ gəlməsinə səbəb olan bir çox tətikləyici faktorların mövcudluğu barədə məlumatlar var. Burada irsi faktorlar - 5, 7, 8, 11, 12 və 20-ci xromosomlarda qopma və ya qırılma nəticəsində MDS əmələ gəlmə riski mövcuddur. Eləcə də boya və ayaqqabı sənayesində istifadə olunan benzen kimi maddələrə, kənd təsərrüfatında istifadə olunan bəzi kimyəvi maddələrə məruz qalmaq. Bundan başqa, kimyaterapiya və radioterapiyadan illər sonra ifosfamid etoposid siklofosfamid, xlorambusil və melfalan və yaxud alkoqolizm, qurğuşunla zəhərlənmə və həmçinin vərəm kimi xəstəliklərin müalicəsindən sonra özünü göstərir".

Həkimin sözlərinə görə, hələlik bu xəstəliklərdə virus faktorunun rolu tam təsdiq olunmayıb və yaş irəlilədikcə yoluxucu xüsusiyyəti də yoxdur. Əvvəllər süd vəzi, prostat və testis xərçəngi, hoçkin və qeyri-hoçkin limfomalı xəstələrin müalicəsindən 10 il sonra belə rast gəlmək ehtimalı vardı: "Xəstəliyin əlamətləri hər yaşda görünsə də, ona 65 yaşlı kişilərdə qadınlardan daha çox rast gəlinir. Əlamətləri halsızlıq, təngnəfəslik, ürək döyüntüsü, qızdırma, gecə tərləməsi, bədəndə qırmızı səpkilər, sümük ağrıları və sairədir. Laboratoriyada qanın ümumi analizi, anemiya, trombositopeniya, leykositopeniya və makrositar götürülməli və retikulositoz, EÇS-in artması, ferritin yüksəkliyi yoxlanılmalıdır. Diaqnostikası zamanı isə qanın ümumi analizi, periferik yaxma, sümük iliyi aspirasiyası və biopsiyası, sitogenetik analiz aparılmalıdır".

Xəstəliyin müalicəsinə gəldikdə isə, əsasən risk qrupu müəyyənləşməlidir: "Aşağı risk qrupuna aid xəstələrdə simptomatik olaraq düşmüş qan dəyərlərinə uyğun olaraq seçilmiş müalicə rejimləri: eritrosit, trombosit GSF (Filgastrim), transfuziyaları və digərlədidir. Yüksək risk qrupdan olan xəstələrin müalicəsində isə məqsəd xəstəliyin seyrini dəyişdirmək və xəstəliyin leykemiyaya çevrilməsinin qarşısını almaqdır. Bu zaman hipometilə təsiredici dərmanlardan azasitidin, decitabin, lenalidomid və s. istifadə olunur".

Xəstəliyə dair proqnozun verilməsi ilə bağlı həkim bildirir ki, yenidən işlənmiş Beynəlxalq Proqnostik İndeks (IPSS-R) 5 faktordan asılıdır: "Sümük iliyində Blast hüceyrələrin faizi, hüceyrələrdə xromosom anomaliyalarının növü və sayı, eləcə də trombosit və neytrofilin sayı müəyyən edilməli, Hb səviyyəsi ölçülməlidir".

# Həkim xəstənin müalicəsini elmi əsaslarla aparmalıdır

## Sudeyf İmamverdiyev: Tələbə inanmalıdır ki, Vətənini sevən, vətəndaşlıq borcunu anlayan, müqəddəs bir peşənin sahibi olan gərəkli insandır



**Müsahibimiz ATU-nun Urologiya kafedrasının müdiri, professor, AMEA-nın müxbir üzvü Sudeyf İmamverdiyevdir.**



**- Sudeyf müəllim, ilk olaraq kafedranızın fəaliyyəti və yarısını geridə qoyduğumuz tədris ili ilə bağlı fikirlərinizi bilmək istərdik.**

- Tədris bizim işimizin kökünü, cövhərini təşkil edən bir istiqamətdir. Bu gün kafedramızda məndən başqa 7 elmlər doktoru çalışır. Ümumiyyətlə, kafedraya rəhbərlik etdiyim dövrdə öz işçilərimiz tərəfindən 8 doktorluq dissertasiyası müdafiə olunub. Bundan əlavə, digər kafedralarla birlikdə 2 elmlər doktoru hazırlamışıq. İndi kafedramızda çalışanların hamısı elmi dərəcəsi olan təcrübəli pedaqoqlardır. Onların hər biri tələbələrə hörmətlə və professionallıqla yanaşaraq, mümkün qədər çox bilik vermək düşüncəsi ilə öz işlərini sevə-sevə davam etdirirlər.

Müşahidələrimiz göstərir ki, indiki tələbələrin hazırlıq səviyyəsi yüksəkdir. Sirr deyil ki, keçmiş vaxtlarda bəzi tələbələr qeyri-şəffaf yollarla ali məktəblərə daxil ola bilirdilər. İndi isə özlərini təsdiq edən, yəni test yolu ilə universitetə qəbul olunan tələbələrə dərs deyirik. Özü də universitetimizə daha yüksək bal toplayan tələbələr gəlir ki, bu da böyük müsbət göstəricidir. Onlarla fikir mübadiləsi aparanda, hazırlıqlarının hansı səviyyədə olmasını müəyyən etmək mümkündür.

**- Siz həm müəllim, həm də həkim kimi uzun bir yol keçmisiz. Ona görə də 30-40 il əvvəlin tələbələri ilə müasir tələbələrin nəzəri biliklərini və praktik bacarıqlarını müqayisə etmək imkanınız var...**

- Dediyim kimi, indi daha hazırlıqlı tələbələr gəlir. Dövran dəyişib, texnologiyalar təkmilləşib. Artıq cərrahiyyədə yeni laparoskopik, endoskopik, mini invaziv üsulların tətbiqinə başlanılıb. Tədris də, təbii ki, 30-40 il bundan əvvəlki tədrisdən fərqlidir. Biz həm tədrislə, həm də cərrahlıqla məşğuluq. Bu nöqteyi-nəzərdən klinikamız ən müasir tibbi avadanlıqlarla təchiz edilib. Amma avadanlıqlar daim yenilənməli, sıradan çıxanlar dəyişdirilməlidir. Bu istiqamətdə müəyyən çatışmazlıqlarımız var.

Bu gün dünyada robotla uroloji əməliyyatlar aparılır. Azərbaycanda isə robot cərrahiyyəsi yoxdur. Düşünürəm ki, bu sahədə də geri qalmaq olmaz. Əlbəttə, bu çox bahalı texnologiyadır. Ondan ötrü gərək böyük vəsait xərcləyəsən.

Hazırda klinikamızda gənc həkimlər, rezidentlər təkmilləşir, tələbələr ağır xəstələrə necə baxmaq, necə yoxlamaq, onları əməliyyata necə hazırlamaq və əməliyyatdan sonra müalicəni necə aparmaq prosesini öyrənirlər. Bu onların təfəkkürünə çox müsbət təsir göstərir. Çünki praktikanın özü hər zaman böyük elmdir. O istiqamətdə mümkün qədər müasirləşmək, təkmilləşmək düşüncəsi ilə elm formalaşır. Həkimin elmi xəstəni düzgün müalicə etməsidir. Bundan ötrü klinikaya gərək xəstə axını olsun. Bəs bu gün nə baş verir? Normal şəraiti olmayan klinikalarda müxtəlif şöbələr yaradılır. Mən ancaq Bakını və urologiya sahəsini götürürəm. Hələ başqa sahələri demirəm. Sığorta sistemi yönəldilir həmin klinikalara. Orada işləyənlər də ən yaxşı halda uzmanlardır. Onlar isə hələ tam formalaşmamış, yalnız müəyyən sahələri öyrənmiş həkimlərdir.

İndi sığorta sistemi ilə dövlət əməliyyatların pulunu ödəyir. Həmin xəstələrin ATU-nun Tədris Cərrahiyyə Klinikasına yox, tədris olmayan yerlərə göndərilməsi məqbul deyil. Çünki bu xəstələr fəsadlardan sonra yenə gəlib bizi tapırlar. Elə xəstələr olur ki, 3-4 dəfə yanlış əməliyyatlara məruz qalıb. Xəstə əlillik dərəcəsinə qədər gəlib çatır. Biz onu yenidən əməliyyat edib sağaldırıq.

Gənc kadrları biz yetişdiririk. Yaxşı da öyrənirlər. Müasir texnologiyadan səmərəli istifadə etməyi bacarırlar. Ancaq onların formalaşmasına xəstə axınının böyük təsiri var. Gərək çox xəstə, manipulyasiyalar görsünlər, əməliyyatlarda iştirak etsinlər ki, sonra sərbəst işləyə bilsinlər. Bizim tələbəlik dövrü ilə müqayisədə indiki tələbələrin daha az xəstə görməsi təəssüf doğurur.

**- Kafedranızın beynəlxalq əlaqələri necədir?**

- Kafedramızın beynəlxalq əlaqələri pandemiya dövründə bir qədər səngisə də, onlayn konfranslarla davam etdi. Bütün əməkdaşlarımızın müxtəlif ölkələrlə, xarici kolleqalarla sıx əlaqələri var. Daha çox Türkiyə, Rusiya və Avropa ölkələrinin müxtəlif aparıcı klinikalarının mütəxəssisləri ilə əlaqələrimiz formalaşıb. Kafedramızda urologiyanın, andrologiyanın müxtəlif sahələrinə yiyələnmiş elmlər doktorları fəaliyyət göstərir. Onlar elmi mühitdə, beynəlxalq aləmdə öz sözlərini deyən alimlərdir. Mötəbər elmi təşkilatların, o cümlədən xarici ölkələrlə birlikdə yaradılmış Türkiyə, Avropa Uroloqlar assosiasiyalarının üzvləridir. Bu istiqamətdə çalışmalarımız daim diqqətdədir.

Kafedramızın mütəxəssisləri bütün müasir sahələrə yiyələnmiş həkimlərdir. Dəridən, sidik yollarından keçməklə, böyrəyin daxilinə nüfuz etməklə bütün əməliyyatları uğurla aparırlar. Təəssüf ki, həmin əməliyyatları həyata keçirmək üçün bəzən bizdə avadanlıqlar çatışmır.

**- Sonda tövsiyələrinizi də eşitmək maraqlı olardı.**

- Bir daha vurğulayım ki, Azərbaycanda hörmətli Prezidentimizin, hökumətin göstərişi ilə sığortaya böyük məbləğdə vəsait ayrılır. İşin başlanğıc mərhələsində bunun əhəmiyyəti böyükdür. Dövlət səviyyəsində iş elə qurulub ki, bütün Azərbaycan vətəndaşları ən vacib tibbi xidmətlərlə əhatə olunsun. Amma bunu reallaşdırmaq istiqamətində hər birimizin üzərinə böyük vəzifələr düşür. Gərək professional olaq, yeniliklərin tətbiqinə daim yol açaq. Əsas məqsəd o olmalıdır ki, xalqımızın sağlamlığını öz həkimlərimiz qorusun. Xəstələrimiz başqa ölkələrin həkimlərinə müraciət etməsin.

1965-ci ildən ali tibb tədrisi ilə məşğul olan təcrübəli bir pedaqoq kimi deyə bilərəm ki, tələbələrlə ünsiyyət zamanı onlarda özlərinə güvən hissini aşılamaq çox vacibdir. Hər biri inanmalıdır ki, Vətənini sevən, vətəndaşlıq borcunu yaxşı anlayan, müqəddəs bir peşə sahibi olaraq həmişə xalqın sağlamlığı keşiyində dayanan savadlı, gərəkli insanlardır. Vətən o zaman sənin olur ki, öhdənə düşən işi yüksək səviyyədə həyata keçirirsən.

# C vitaminini çox qəbul etmək infeksiyalardan qoruyur?

## Həkim deyir ki, ehtiyac olmadan böyük miqdarda vitaminlər qəbul etməyin faydası yox, ziyanı var

**Son dövrlərdə əhali arasında yeri gəldi-gəlmədi vitamin tərkibli preparatlardan, xüsusilə də C vitaminindən istifadə halları çoxalıb. O da sirr deyil ki, koronavirus (COVID 19) infeksiyasının yayıldığı dövrdən sonra vitaminlərə tələbat daha çox artmağa başlayıb. Bəs bu nə dərəcədə doğrudur? Mütəxəssislər nə deyir?**



Suallarımızı I Daxili xəstəliklər kafedrasının dosenti, həkim-terapevt Nağdəli Zamanov cavablandırıb. O, "Təbib" qəzetinə açıqlamasında qeyd edib ki, kimyəvi adı askorbin turşusu olan C vitamininə orqanizmin ehtiyacı elə də çox deyil, gün ərzində cəmi 90 mq-dır: "Amma son illərdə koronavirus infeksiyası ilə bağlı insanlarımız müqaviməti gücləndirmək məqsədilə askorbin turşusuna daha çox müraciət edirlər. Əlbəttə, askorbin turşusu bədəndə oksidləşmə proseslərini tənzimləyir. Lakin insanlarımız bunu xəstələnməmişdən qabaq iri dozalarla, hətta 5 qramlıq dozada qəbul edir ki, bu da yolverilməzdir. Məlumdur ki, yüksək temperaturda, xəstəlik zamanı orqanizmdə askorbin turşusu azalır. Deməli, belə vəziyyətdə biz xəstələrə iri dozada C vitamini verəcəyik. Həmçinin ağır fiziki məşqlər vaxtı C vitamininə tələbat təbii olaraq artır. Ancaq tələbatın artmasına baxmayaraq, heç bir xəstəlik əlaməti olmadan profilaktik məqsədlə iri dozada C vitaminindən istifadə etməyə ehtiyac yoxdur".

N.Zamanovun fikrincə, C vitaminini qəbul edərkən təbii şəraiti də nəzərə almaq lazımdır: "Unutmamalıyıq ki, Azərbaycan meyvə və tərəvəzlərlə zəngin ölkədir. Burada tərkibində kifayət qədər C vitamini olan göy soğan, sarımsaq, limon, portağal, naringi, itburnu, cəfəri kimi meyvə və giləmeyvələr, tərəvəzlər var. Duza qoyulmuş tərəvəzlər istisna olmaqla, bu cür qidalar insan orqanizmi üçün çox faydalıdır".




Orqanizmin özünün sintez etmədiyi, kənardan aldığı C vitamininin yan təsirlərinin də olduğunu diqqətə çatdıran həkim-terapevtin sözlərinə görə, onun həm də müəyyən dərmanların təsirini azaltmaq və gücləndirmək xüsusiyyəti var. Ona görə də hipertoniklər, şəkərli diabet xəstələri C vitaminini yüksək dozada qəbul etməməlidir: "Çünki mədəaltı vəzin insulyar aparatının işini tormozlamaq qabiliyyətinə malikdir və dolayısıyla qanda şəkəri artırır. Əgər qanda dəmirin miqdarı çoxdursa, biz buna hemoxromatoz deyirik. Qaraciyərdə dəmirin artıq şəkildə toplanmasına gətirib çıxara bilər. Bir də böyrəklərdə oksalat kristallarına daha çox rast gəlinir ki, bu da gələcəkdə böyrəklərin zədələnməsi və böyrək daşı xəstəliyi ilə nəticələnir. Eyni zamanda mədə turşuluğu olan xəstələrə də mənfi təsir göstərir. Yəni turşuluğu bir az da artırır, mədəni qıcıqlandırır".

Bütün hallarda həkim tövsiyəsi olmadan iri dozada C vitamini qəbul etməyi məsləhət görməyən müsahibimiz bildirib ki, "hansısa xəstəliyin qarşısını almaq üçün C vitaminindən istifadə zəruridir" düşüncəsi yanlışdır: "Hər kəs yadda saxlamalıdır ki, orqanizm onsuz da artıq şeyi xaric edir. Belə bir mif yaradıblar ki, C vitaminini çox qəbul etsən, infeksiyaya yoluxmayacaqsan. Bu fikirlərin məntiqi və elmi əsası yoxdur. Təcrübədə də özünü doğrultmayıb. Əsas odur ki, insanın sinir sistemi, iş rejimi, yuxusu rahat olsun".

Dosent N.Zamanov C vitamininin əhəmiyyətindən danışaraq vurğulayıb ki, onun çatışmazlığı nəticəsində sinqa xəstəliyi əmələ gəlir, damarların keçiciliyi pozulur, qansızmalar baş verir: "Bu baxımdan C vitamininə ehtiyacımız böyükdür. Uşaqlar daim hərəkətdədir deyə, onların C vitamininə ehtiyacı daha çoxdur. Ancaq yaşlı insanlar üçün də C vitamini vacibdir. Damar divarını möhkəmləndirir, qansızmaların, qanaxmaların qarşısını alır. Hamiləlik zamanı, süd verən analarda da C vitamininə tələbat artır. Amma ifrat dərəcədə istifadəsi zərərlidir. Dahi şairimiz Nizami Gəncəvi demişkən:

*Bir inci saflığı varsa da suda,*
*Artıq içiləndə dərd verir o da.*

Bir sözlə, zərurət yarandıqda orqanizmin tələbatını ödəyəcək miqdarda C vitamini qəbul etmək normaldır. Sağlam insanların isə sadəcə profilaktik məqsədlə təkcə C vitaminindən deyil, başqa vitaminlərdən də istifadə etməsi tövsiyə olunmur".

**Arif MƏMMƏDLİ**

Şəhid məzunlarımız

# “Böyüyəndə qəhrəman olacağını hiss etmişdim”

## İlqar Zeynallının yoxluğu nə qədər ağır olsa da, Vətən uğrunda şəhidlik zirvəsinə ucalması hər kəsi qürurlandırır



**Uşaqlıqdan futbola böyük həvəsi vardı. Tovuzun “Turan” futbol klubunda hücumçu idi. Futbol mütəxəssisləri və azarkeşlər onun gələcəyinə böyük ümidlər bəsləyirdilər. Çünki cəld hərəkətləri ilə tay-tuşlarından fərqlənir, topla səlis oynamağı bacarırdı. İdmanımızın şərəfini lazımi səviyyədə qoruya bilərdi. Amma başqa yol seçdi...**

İlqar Vətənin müdafiəsini hər şeydən üstün tutdu. Ona görə də orta məktəbdə oxuduğu illərdə hərbi həkim olmaq arzusuna düşdü. Bu istiqamətdə hazırlaşaraq istəyinə nail oldu da. Doğulduğu Tovuz rayonunun Elşad Tağıyev adına Cəlilli kənd orta məktəbini bitirərək Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə daxil oldu və 2012-2014-cü illərdə feldşer ixtisasına yiyələndi. Universiteti bitirdikdən sonra Beyləqanda N saylı hərbi hissədə xidmətə başladı. 2018-ci ildən etibarən isə xidmətini Tovuzda yerləşən N saylı hərbi hissədə davam etdirdi. Tibb xidməti giziri İlqar Zeynallı 2020-ci il iyulun 14-də ermənilərin Tovuz istiqamətində törətdiyi təxribat zamanı yaralı hərbçiyə tibbi yardım göstərən zaman şəhidlik zirvəsinə yüksəldi. Məzarı dünyaya göz açdığı Cəlilli qəbiristanlığındadır.

### Futbolçu olacaqdı, Vətəninin müdafiəçisi oldu

**Atası Ayaz Zeynalov:**



- İlqar uşaqlıqdan çox çevik idi. Futbolu sevirdi. 5-ci sinifdən Tovuzun “Turan” futbol komandasında oynayırdı. Yaxşı hücumçu idi. Onun oyununu hamı bəyənirdi. Özü də futbolçu olmaq istəyirdi. Amma orta məktəbi bitirənə yaxın fikrini dəyişdi. Hərbi həkim olmaq arzusunda olduğunu dedi. Mənimlə bu barədə məsləhətləşdi də. Dedi ki, dostlarından biri Tibb Universitetinin Hərbi tibb fakültəsində oxuyur, istəyirəm mən də həmin fakültədə oxuyam. Razılaşdım və istəyinə hörmətlə yanaşdım. Orta məktəbdə yaxşı və əla qiymətlərlə oxuyurdu. İmtahanları verdi, yüksək balla universitetə qəbul oldu. Fikirləşirəm ki, yəqin torpaqlarımız işğal altında olduğundan, İlqar hərbi həkim peşəsini seçibmiş.

Universiteti bitirəndən sonra təyinatla N saylı hərbi hissədə xidmətə başladı. Orada bir az xidmət etdikdən sonra ön cəbhəyə təyinat aldı. Aprel döyüşlərinin də fəal iştirakçılarından olub. Sonradan Tovuz rayonunda yerləşən N saylı hərbi hissədə xidmətini davam etdirirdi. Təlimatlara uyğun olaraq xidmətini yerinə yetirir, bununla yanaşı, çox sevdiyi idmanla da məşğul olurdu. Normativləri yerinə yetirən zaman həmişə birincilik qazanırdı, nizam-intizamlı idi. Nümunəvi xidmətinə görə tərifnamələri, Fəxri fərmanları da var. 2020-ci ilin iyulunda baş verən döyüşlərdə şəhid oldu. Göstərdiyi qəhrəmanlığa görə “Vətən uğrunda” medalı ilə təltif edilib. Onu da qeyd edim ki, şəhid olandan sonra rayonumuzdakı kluba İlqarın adını veriblər.

### “Böyüyəndə qəhrəman olacağını hiss etmişdim”

**Anası Dilarə Zeynalova:**

- İlqar olduqca mehriban, gülərüz, qayğıkeş uşaq olub. O mənim üçün fərqli bir övlad idi. Uşaqlığı heç zaman gözümün önündən getmir. Futbolu çox sevirdi. Dərsdən gələndən sonra futbol oynamağa gedərdi. Onun böyüyəndə qəhrəman olacağını hələ uşaqlıqdan hiss etmişdim. Ailədəkilərin problemini xəlvətcə həll edərdi. Sanki o, göydən yerə enmiş bir mələk idi. Necə gəlmişdisə, eləcə də getdi. Təkcə hərbçilərin deyil, həm də bizim ailə həkimimiz idi. Rayonda xəstələri pulsuz müalicə edirmiş. Mən İlqarın xeyirxahlığı barədə şəhid olandan sonra evimizə gələn tanımadığım insanlardan eşitdim. Sonradan bilmişəm ki, mənim İlqarım Aprel döyüşlərində də, 2020-ci ilin iyulunda da neçə-neçə yaralı hərbçinin həyatını xilas edərək həyata qaytarıb.

...İlqarla sonuncu görüşüm ad günündə - iyulun 9-da olub. Bir yerdə süfrə başında oturduq, şirin söhbətlər, zarafatlar etdik. Bilsəydim onunla sonuncu görüşümdür, buraxmazdım, qoymazdım getməyə. Onun kimi oğullar hələm-hələm dünyaya gəlmir. Mən oğlumla fəxr etmişəm, indən sonra da ömrüm boyu fəxr edəcəm.



### “ Şəhid qardaşı olmaq kədərlə qüruru birgə yaşamaqdır”

**Qardaşı Sənan Zeynallı:**

- İlqar bir çox xüsusiyyətləri ilə yaşıdlarından fərqlənirdi. Kiçik yaşlarında tay-tuşları hansısa oyun oynayanda, İlqar bizdən xəlvət ailənin maddi problemlərinə kömək üçün zəhmətə qatlaşırdı. Həddindən artıq ailəcanlı və dostcanlı olması da onun üstün keyfiyyətlərindən idi.

Bir hərbçi və vətənpərvər insan kimi İlqarın ən böyük arzusu torpaqlarımızın düşməndən azad edilməsi idi. İstəyirdi ki, Aprel döyüşlərində şəhid olan qardaşlarımızın qisası alınsın. Həmişə şəhidlərimiz haqqında fəxrlə danışardı. Onların necə mərd, qeyrətli olmasından ağızdolusu söhbətlər edərdi. İlqar şəhid olanda da, hərbçi yoldaşları və dostları onun haqqında o cür ağızdolusu danışırdılar. Deyirdilər ki, Aprel döyüşlərində yaralanıb, amma buna baxmayaraq, təhlükəli yerlərdən yaralı hərbçiləri çıxarıb. Ona ehtiyatlı olmasını, təhlükəli yerlərə getməməsini desələr də, əhəmiyyət verməyib. Bildirib ki, bir az geciksəm, qardaşlarım qanaxmadan həyatlarını itirə bilər, sonra özümü bağışlamaram.

İlqarın yoxluğu bizi çox üzür. Tək təsəllimiz onun şəhid olmasıdır. O, darıxdığı qardaşlarının yanına şəhid kimi getdi. Mənim düşüncəmə görə, şəhid qardaşı olmaq kədərlə qüruru birgə yaşamaq deməkdir. Onun itkisinə kədərlənsək də, qəhrəmanlığı ilə qürur duyuruq.

### “Problemimi valideynlərimdən öncə ona deyərdim”

**Bacısı Fidan Zeynalova:**

- İlqarla uşaqlığımız olduqca xoş və mənalı keçib. Uşaq vaxtlarından bir yerdə olmuş, bir yerdə oynamışıq deyə, onunla bağlı xatirələrim də çoxdur. Haqqında nə qədər danışsam da, bitməz, tükənməz. O mənim üçün əvəzolunmaz qardaş idi, hər kəsə qarşı mehriban, mərhəmətli, gülərüz. Bir yerdə oturub dərdləşər, gələcəyə dair planlar qurardıq. O həm də mənim sirdaşım, dərd yoldaşım idi. Nə problemim olsaydı, valideynlərimdən öncə ona deyərdim. O da heç zaman məni darda qoymazdı. Müharibə ilə bağlı filmlərə baxmağı çox xoşlayırdı. Evə gələndə evimiz onunla şənlənərdi.



Son görüşümüz onun ad günündə oldu. Axırıncı dəfə telefonla yazışanda, iyulun 20-də gələcəyini demişdi. Amma iyulun 14-də bayrağa bükülmüş tabutu gəldi. Mən inanmadım, çünki gələcəyinə söz vermişdi. Yenə də inanmıram, çünki şəhidlər ölmür. Şəhid olmamışdan qabaq mənimlə yuxuda vidalaşmışdı. O hər zaman mənimlədir, yanımda hiss edirəm. Həmişə fəxr etmiş və bu gün də fəxr edirəm ki, İlqar Zeynallının bacısıyam.

### “O ən yaxşı sözlərə layiq bir qardaş idi”

**İş yoldaşı Amil Səmədov:**

- Onunla 2018-ci ildə tanış olmuşuq. İlqar Zeynallı bir həkim, bir dost kimi hərbçi yoldaşlarının qəlbində özünə yer tapmış insan idi. Postlara gedəndə ön xətdə xidmət edən əsgərlərimizin sağlamlığı ilə yaxından maraqlanır, onlara diqqət və qayğı göstərir, müalicəyə ehtiyacı olanlara yardım edirdi. Bir sözlə, çox sevdiyi peşəsinin öhdəsindən layiqincə gəlirdi. Xidmət etdiyi hərbi hissədə kimsənin ondan narazılığı yox idi. Onun haqqında söhbət düşəndə, həmişə xoş sözlər eşitmişəm. Həm aprel, həm də iyul döyüşlərində iştirak etdi. Amma iyulda qəhrəmanlıqla şəhid oldu. Bir dost kimi İlqar haqqında keçmiş zamanda danışmaq mənim üçün çox çətindir. O ən yaxşı sözlərə layiq bir yoldaş, qardaş idi..



### “Yaralıları od-alovun içərisindən çiynində çıxarıb”

**Sinif yoldaşı Mehman Novruzov:**

- Onunla həm uşaqlıq dostu olmuş, həm də orta məktəbdə bir oxumuşuq. Münasibətdə olduğum illərdə də qan qardaşı, can sirdaşı olmuşuq. Çörəyimizi belə yarı bölmüşük. İlqar şəhid olanda Tovuz rayonunda hamı ağladı. Ürəyigeniş, təmizqəlbli idi. İnsanlarla səmimi, mehriban davranırdı. Aprel döyüşlərində iştirak etməsini sonradan bildik. Başqalarından eşitdim ki, həmin vaxt təcili tibbi yardım avtomobili xarab olubmuş. Amma özünü itirməyib, yaralıları od-alovun içərisindən çiynində çıxarıb. Həmin vaxt Beyləqanda N saylı hərbi hissədə xidmətdə idi. Döyüşlərdə yaralanmışdı da. Amma evdə heç kim onun yaralandığını bilmədi. Yaxın dostu kimi bircə mənə dedi. Bir müddət müalicə də olundu.



Tovuz rayonun Ağdam kəndində mən də posta çıxırdım. Kənd camaatı onu çox istəyirdi. Mülki vətəndaşlara belə tibbi yardım göstərirdi. Sanki xeyirxahlıq etmək üçün yaranmışdı. Gülərüz, xoş təbəssümlü insan idi. Yaxşı oxuyurdu, sakit idi deyə, müəllimlərimizin hamısı onu çox istəyirdi. Biz sinif yoldaşları heç vaxt İlqarı unutmuruq, unutmayacağıq da. Ona məktəbimizdə guşə təşkil etmişik.

25 yaşında şəhidlik zirvəsinə yüksələn İlqar Zeynallının çox arzuları yarımçıq qaldı. Amma ən böyük arzusu ölümündən bir neçə ay sonra - 44 günlük Vətən Müharibəsində həyata keçdi. Torpaqlarımız düşmən işğalından azad olunduğu üçün bütün şəhidlərimiz kimi, indi İlqarın da ruhu şaddır.



**Qabil ZİMİSTANOĞLU**



# Stolüstü tennis turniri keçirilib

**Dekabrın 27-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və ATU-nun "Təbib" idman klubunun birgə təşkilatçılığı ilə stolüstü tennis idman növü üzrə qadınlar və kişilər arasında Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş turnir keçirilib. Universitetimizin Tədris İdman Kompleksində baş tutan turnirə 7 qız, 17 oğlan tələbə qatılıb.**



Açılış mərasimində dövlət himnimiz səsləndikdən sonra "Təbib" idman klubunun sədri Qələndər Aslanov turniri açıq elan edərək tələbələrə uğurlar arzulayıb. O, belə yarışların sessiya qabağı tələbələrin motivasiya olunmasında böyük əhəmiyyət daşıdığını bildirib.

Bundan sonra çıxış edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Cəlil Əlizadə idarənin rəisi Raqif Abbasovun adından bütün iştirakçıları salamlayaraq, tələbələrə və klubun kollektivinə səmimi təbriklərini çatdırıb. O, Bakı şəhərində yerləşən ali təhsil müəssisələri arasında ATU-nun hər zaman fərqləndiyini, heç bir universitetdə il boyu bu qədər idman tədbirlərinin keçirilmədiyini vurğulayıb.

Nəsimi rayon Gənclər və idman idarəsinin rəisi Şahmar Tağıyev də tədbirdə çıxış edərək, ulu öndər Heydər Əliyevin idmana və idmançılara hər zaman verdiyi dəyərdən və ölkə idmanının inkişafından danışıb.

Sonra turnirə start verilib. Dairəvi sistemlə keçirilən turnirin sonunda qaliblər müəyyənləşib. Qızlardan Vəfa Əliyeva I, Səna Balkan II, Aynur Quliyeva III, oğlanlardan isə Abdullətif Çağın I, Sezer Güngördü II və Barış Kaplan III yerlərə layiq görülüblər.

Qaliblər Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin diplom və medalları ilə təltif olunublar.

# Tələbələr təcrübə proqramları ilə bağlı məlumatlandırılıb

**AIESEC beynəlxalq təşkilatının ölkəmizdəki nümayəndəliyinin əməkdaşları Azərbaycan Tibb Universitetinin bir qrup tələbəsi ilə Global Volunteer, Global Teacher və Global Talent təcrübə proqramları haqqında məlumatlandırıcı tədbir keçirib. Toplantını açan ATU-nun II Müalicə-profilaktika fakültəsi üzrə THİK-in sədri Zivər Hüseynova tələbələri tədbirin məqsədi ilə tanış etmək üçün sözü bu beynəlxalq təşkilatın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Gülara Məmmədovaya verib.**

G.Məmmədova bu təşkilatın yaranma tarixi, inkişaf yolu və xaricdəki könüllü və maaşlı təcrübə proqramlarında iştirak etmək üçün qeydiyyat prosedurları, eləcə də ölkəmizdə gördüyü işlər haqqında ətraflı məlumat verib. O, çıxışında qeyd edib ki, hazırda 130-a yaxın ölkədə fəaliyyət göstərən və dünyanın ən böyük beynəlxalq gənclər təşkilatı olan AIESEC-in əsas məqsədi gənclərin liderlik potensialını aşkara çıxarmaq və onların inkişafına səmərəli töhfə verməkdir. Yarandığı gündən bir milyondan artıq gəncin şəxsi inkişafına səbəb olan təşkilatın müxtəlif proqramları vasitəsilə gənclərə beynəlxalq təcrübə keçmək şansı yaradılıb. G.Məmmədova bildirib ki, AIESEC təşkilatı Azərbaycanda 2006-cı ildən bəri fəaliyyət göstərir və hazırda ölkəmizdə 200-dən artıq fəal üzvü var.



Tədbirdə çıxış edən AIESEC Azərbaycan təşkilatının marketinq menecerləri Aysel Əzizova, Nərmin Ağayeva və Aysel Abudova vurğulayıblar ki, əgər tələbələr gənclik illərinin ən gözəl dövrü olan tələbəliyi daha da maraqlı, səmərəli, faydalı və beynəlxalq bir mühitdə inkişaf etdirərək keçirmək istəyirlərsə, bu təşkilatın tələblərini gözdən keçirib ona üzv ola bilərlər.

Diskussiya formasında keçirilən tədbirdə təşkilat nümayəndələri ilə tələbələrimiz arasında maraqlı müzakirələr aparılıb. Sonda AIESEC Azərbaycan təşkilatının rəhbəri G.Məmmədova tələbələri maraqlandıran sualları cavablandırıb.

## Poeziya guşəsi

### Ömrü əlli olsun, ya da yüz olsun

Almasan vecinə dünya gərdişin,
Ürəyə salmasan qəmi, kədəri.
Düşünməsən sonundakı qədəri,
Yüz il yaşamağa nə vardı axı.

Dinindən olmazsa əsla xəbəri
Namusu, qeyrəti almazsa vecə.
Düşünsün ömrünü xərcləyib heçə,
Belə yaşamağa söylə, dəyərmi?

Həyatda biganə ömür sürənlər,
Özündən başqasın düşünməyənlər
Daha çox istəyir yüz il yaşasın,
Belə yüz yaşasa, kimə nə xeyri?!

Şəhid var ki, ömrü iyirmi ildir,
Tarixdə qalacaq izi hər zaman.
Qazanıb şəhidlik adını getdi,
Əbədi cənnətə bir səfər etdi.

İnsandan sonraya əməllər qalır,
Onlar da faydalı, faydasız olur.
Əməllər yaşadır əsl insanı,
Ömrü əlli olsun, ya da yüz olsun!

**Mirzamin Muxtarov**
*Yoluxucu xəstəliklər kafedrasının əməkdaşı*

### Olmasa
*(Qəzəl)*

Neynirəm mən həyatı, sevgi-məhəbbət olmasa,
O gözəl yar yəni bir gün mənə qismət olmasa.

Yar zülm etsə belə, bir o qədər pis olmayın,
Vüsalın qədri bilinməz axı, həsrət olmasa.

Cənnəti görmək üçün hər gün onu seyr edərəm,
Bilsəm, əgər o biri dünyada cənnət olmasa.

Mən olan yerlərə zalım qızı qoymur qədəmin,
Onun üçün xüsusi, ayrıca dəvət olmasa.

Gözəl olmazdı məncə sürdüyümüz fani ömür,
Ən təmiz duyğu və hisslərdən ibarət olmasa.

Vardı bir xahişim, ölsəm mən əgər, baş daşımın
Üstünə yazdırın bu qəzəli, zəhmət olmasa.

**Vaqif Abdullayev**
*İctimai səhiyyə fakültəsinin tələbəsi*

# ATU-nun çoxillik tarixə malik kafedrası

**Respublikada sitologiya, embriologiya və histologiya elmlərinin formalaşma və inkişaf tarixi 1919-cu ildə yaradılan Bakı Dövlət Universitetinin Tibb fakültəsinin Histologiya kafedrası ilə bağlıdır. 1930-cu ildə Tibb fakültəsinin ayrılaraq müstəqil Azərbaycan Dövlət Tibb İnstitutuna çevrilməsi ilə histologiya kafedrası da sonuncunun tərkibinə daxil olub. Kafedranın yaradıcısı və onun ilk rəhbəri isə məşhur alman alimi R.Virxoffun tələbəsi, dünyanın ən görkəmli morfoloqlarından biri, professor Moisey Solomonoviç Milman olub.**



Tədris-təlim prosesi və maddi-texniki baza haqqında geniş məlumat almaq üçün kafedranın müdiri, professor Eldar Qasımovla söhbətləşdik. O, qeyd etdi ki, kafedra 1999-cu ildən ATU-nun 3 saylı tədris binasının 3-cü mərtəbəsini əhatə edən yeni bazaya köçmüşdür. Həmin vaxtdan da kafedranın maddi-texniki təchizatı xeyli artmış, elmi və tədris-metodik işlərin inkişafı üçün böyük imkanlar yaranmışdır: "Kafedrada tədris prosesi son illərdə xeyli müsbət dəyişikliyə uğramış, elmi cəhətdən yenidən əsaslandırılmış və metodik baxımdan məqsədəuyğun formada zənginləşmişdir. Kafedrada tədris prosesi yüksək ixtisaslı mütəxəssislər tərəfindən üç dildə (Azərbaycan, rus və ingilis) aparılır. Fənnin öyrənilməsi üçün kafedrada mühazirə və təcrübə məşğələlərin təqvim-mövzu planları əsaslı şəkildə işlənib hazırlanmış, hər mühazirə və məşğələ üçün tədris materiallarının həcmi, məzmunu və funksional quruluşu dəqiq müəyyənləşdirilmişdir. Tədris olunan bütün mövzular üzrə tədris-metodik işləmələr yenidən işlənmişdir".

Sözünə davam edən kafedra müdiri bir sıra yeniliklərdən də bəhs etdi: "Bütün dərs otaqları mikroskoplarla təchiz olunmuşdur. Belə ki, tədris prosesi üçün 4 ədəd Leitz (Almaniya), 32 ədəd MBI (Rusiya), 11 ədəd Motic (Çin) və 61 ədəd L-790 (Çin) işıq mikroskopları alınmışdır. Elmi tədqiqat işlərinin yerinə yetirilməsi üçün üç tubuslu işıq mikroskopu Zeiss (Almaniya), Pixera Professional (ABŞ) və Canon EOS D650 (Yaponiya) rəqəmsal fotokameraları əldə edilmişdir.

Universitet rəhbərliyinin təşəbbüsü ilə tədris prosesinə elektron resursların tətbiqi dərslərin keyfiyyətində mühüm dəyişikliyə səbəb olmuşdur. Belə ki, mühazirələrin gedişi zamanı slaydların nümayişi multimedia sisteminin köməkliyi ilə həyata keçirilir. Bütün dərs otaqlarında yerləşdirilmiş kompyuterlər vasitəsilə təcrübə məşğələlərində tələbələrə dünyanın mənim tərəfimdən üç dildə dərc olunmuş histoloji atlaslarından götürülmüş tədris şəkilləri, elektronoqramlar və sxemlər göstərilir. Bu zaman tələbələrin mikroskoplarla sərbəst işləməsinə, histoloji preparatları və elektronoqramları «oxuma» təcrübəsinə və təhlil etmə qabiliyyətinə yiyələnmələrinə xüsusi diqqət yetirilir. Hazırda kafedrada 2 mühazirə zalı, kompyuter mərkəzi, 24 tədris auditoriyası, 1 elmi-tədris laboratoriyası var. Bütün otaqlar və dəhliz müasir tələblər səviyyəsində təmir olunmuşdur".

Eldar Qasımov qeyd etdi ki, onun rəhbərliyi ilə "Respublikada biologiya və tibb sahəsində ultrastruktur tədqiqatların müasir səviyyədə təşkili üçün Transmission Elektron Mikroskopun (TEM), müvafiq cihaz, avadanlıq və materialların alınması" mövzusunda hazırlanan pilot layihəsi AR Prezidenti yanında Elmin İnkişafı Fondunun xətti ilə keçirilən müsabiqədə qalib gəlib və TEM (JEM-1400, Yaponiya) 2012-ci ildə ATU-nun 4-cü tədris binasında yerləşdirilib: "Elektron mikroskopun univetsitetimizə gətirilməsi həm respublika daxilində, həm də xarici ölkə alimləri ilə elmi əlaqələrimizi yeni səviyyəyə qaldırmışdır. E.coli endotoksinin təsirindən makrofaqların piroptoz üsulu ilə ölmələrini elektron mikroskopik təsdiqinə, mexaniki sarılıq zamanı ödçıxarıcı yollarda baş verən konpensator dəyişikliklərin ultrastruktur əlamətlərinin müəyyən edilməsinə və talassemiyalı xəstələrdə sağalmayan yaraların formalaşmasında iştirak edən kompleks faktorların aşkar olunmasına aid məlumatlar AMEA tərəfindən son illərdə mühüm nəticələr kimi qəbul olunmuşdur. Bundan əlavə, əməkdaşlarımız ATU-nun 19 kafedrası, həmçinin respublikanın 11 elmi-tədqiqat müəssisəsi ilə əməkdaşlıq çərçivəsində birgə elmi işlər yerinə yetirir".

Beynəlxalq əlaqələrdən də bəhs edən Eldar Qasımov kafedranın Gürcüstan, Almaniya, Türkiyə, Çin, Rusiya, ABŞ, Hollandiya, Hindistan, Səudiyyə Ərəbistanı, Pakistan və Cənubi Koreyanın elmi-tədqiqat mərkəzləri ilə birgə tədqiqatlar apardığını bildirdi. Son illər bunun nəticəsi olaraq impakt faktoru yüksək olan jurnalların daxil olduğu indeksləmə bazalarına aid olan elmi əsərlərin ümumi sayı 81-ə catıb. Onlardan 41-i Web of Science, 31-i Scopus, 7-si РИНЦ və 2-si PubMed-də dərc edilib. Kafedra əməkdaşlarından iki nəfər beynəlxalq qrantların qalibi olaraq postdoktoral elmi tədqiqat işləri aparıb.

Professorun sözlərinə görə, hazırda kafedrada 37 nəfər çalışır: "Onlardan 2-si professor, 4-ü dosent, 8-i baş müəllim, 9-u assistent, 3-ü baş laborant, 5-i laborant, digərləri isə texniki işçilərdir. Kafedranın əməkdaşlarından 1 nəfər tibb elmləri doktoru, 6 nəfər isə fəlsəfə doktoru elmi dərəcəsini almışlar. Kafedrada hal-hazırda 3 nəfər tibb üzrə elmlər doktoru, 3 nəfər isə tibb üzrə fəlsəfə doktoru elmi dərəcələrini almaq üçün dissertasiya işləri üzərində çalışır".

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Fakültənin dekanı:**
- Əczaçılıq fakültəsi

**Kafedraların müdirləri:**
- Uşaq cərrahlığı kafedrası
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası
- I Uşaq xəstəlikləri kafedrası
- Şüa diaqnostikası və terapiyası kafedrası

**Kafedraların professorları:**
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,25 vahid)
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafedrası - 1 yer
- Urologiya kafedrası - 2 yer (0,5 vahid)
- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer
- Oftalmologiya kafedrası - 2 yer
- Klinik farmakologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,75 vahid)
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)
- I Mamalıq və ginekologiya kafedrası - 2 yer (0,5 vahid)
- Nevrologiya kafedrası - 1 yer
- Allerqologiya və immunologiya kafedrası - 1 yer (0,25 vahid)
- Tibbi və bioloji fizika kafedrası - 1 yer
- II Daxili xəstəliklər kafedrası - 2 yer (0,5 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer (0,5 vahid)
- Fizioterapiya və tibbi reabilitasiya kafedrası - 1 yer
- Epidemiologiya və biostatistika kafedrası - 1 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

# Tanınmış alimin 80 yaşı tamam olub

**Bioloji kimya kafedrasının məsləhətçi-professoru - əməkdar müəllim, biologiya elmləri doktoru, professor Arif Mustafa oğlu Əfəndiyevin 80 yaşı tamam olub.**



A.Əfəndiyev 1943-cü il yanvarın 1-də Şamaxı rayonunda ziyalı ailəsində anadan olub. 1959-cu ildə Bakı şəhərindəki 6 №-li orta məktəbi əla qiymətlərlə bitirərək, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) Əczaçılıq fakültəsinə daxil olub.

O, 1964-cü ildə ali təhsilini başa vuraraq, institutun özündə – Bioloji kimya kafedrasında baş laborant vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1969-cu ildə aspiranturada təhsil müddəti başa çatan A.Əfəndiyev Bioloji kimya kafedrasının assistenti vəzifəsinə qəbul edilib.

Arif müəllim 1970-ci ildə biologiya elmləri namizədi alimlik dərəcəsi alıb, 1974-cü ildən kafedranın dosenti vəzifəsinə seçilib, 1981-1984-cü illərdə kafedranın müdiri vəzifəsini icra edib. Həmin illər ərzində intensiv elmi-tədqiqat işləri aparan Arif Əfəndiyev 1986-cı ildə doktorluq dissertasiyası üzərində işini tamamlayaraq, Moskvada, SSRİ Tibb Elmləri Akademiyasının ET Qidalanma İnstitutunun nəzdindəki dissertasiya şurasında müdafiə edib.

Qeyd etmək lazımdır ki, A.Əfəndiyevin doktorluq dissertasiyasının əsas müddəalarını əhatə edən elmi məqalələrin əksəriyyəti xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap olunub, dəfələrlə müxtəlif ölkələrdə (Yuqoslaviya, Almaniya, Niderland və s.) keçirilən elmi qurultay və konfranslarda elmi məruzələrlə çıxış edib.

Onun elmi məqalələri bir sıra inkişaf etmiş ölkələrin (ABŞ, İngiltərə, Niderland, Çexiya, Bolqarıstan, Yuqoslaviya və s.) alimlərinin marağına səbəb olub, həmin ölkələrdən müştərək fəaliyyət haqqında təkliflər alınıb ki, bunun sayəsində Bioloji kimya kafedrası ilə bir sıra xarici ölkələrin nüfuzlu elmi mərkəzlərinin əməkdaşlığı bu gün də davam edir.

1989-cu ildə professor elmi adını alan A.Əfəndiyev 1988-1990-cı illərdə I Müalicə-profilaktika və 1992-1994-cü illərdə Əczaçılıq fakültələrinin dekanı vəzifəsində işləyib. Arif müəllim Bioloji kimya kafedrasına rəhbərlik etməklə bərabər, həmin kafedranın nəzdində fəaliyyət göstərən Problem elmi-tədqiqat laboratoriyasının da rəhbəridir. Bu gün kafedrada çalışan əməkdaşların əksəriyyəti elmi-pedaqoji kadr kimi məhz Arif müəllimin rəhbərliyi ilə yetişən şəxslərdir. İndiyə qədər onun rəhbərliyi altında 28 namizədlik (fəlsəfə doktorluğu) və 3 doktorluq dissertasiyası işlənərək müdafiə edilib, hazırda 5 dissertasiya işi üzrə tədqiqatlar davam etdirilir.

Arif müəllimin qələmindən 280-dən artıq elmi əsər, o cümlədən dərsliklər, dərs vəsaitləri çıxıb. Bunlardan əlavə, kafedranın əməkdaşları ilə bilikdə Azərbaycan və rus dillərində praktik dərs vəsaitləri, həmçinin 21 tədris-metodik vəsait yazıb çap etdirib. O, rəhbərlik etdiyi kafedranın əməkdaşları ilə birgə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu ildə elan etdiyi ilk müsabiqənin qalibi olub. Bunun sayəsində Elm Fondunun ayırdığı qrant kafedranın müasir tipli analitik aparatlarla təmin olunmasına sərf edilib və burada müasir səviyyədə elmi-tədqiqat aparılmasına şərait yaranıb.

Professor A.Əfəndiyev 2000-ci ildə Avropa Biokimyaçılar Cəmiyyətləri Konfederasiyasında təşkil edilmiş «Biokimyanın tədrisi» komissiyasının MDB ölkələrindən seçilmiş yeganə üzvüdür. O, uzun müddət respublika biokimyaçılar cəmiyyətinin elmi katibi vəzifəsini yerinə yetirib.

Arif müəllimin fədakar əməyi dövlət rəhbərliyinin də diqqətindən yayınmayıb. O, 1984-cü ildə "SSRİ Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilib, 2010-cu ildə «Əməkdar müəllim» fəxri adına layiq görülüb.

Bu gün də elmi yaradıcılığı və pedaqoji fəaliyyətini davam etdirən Arif müəllimə möhkəm cansağlığı və uğurlar arzulayırıq!

***Bioloji kimya kafedrasının əməkdaşları***

# Əməkdaşımız dünya çempionatına lisenziya qazanıb




***Gənclər və İdman Nazirliyinin milli güləş üzrə keçirdiyi yarışda Azərbaycan Tibb Universitetinin əməkdaşı, mühafizəçi Mahir Əliyev də iştirak edib.***

O, gərgin keçən mübarizədə ən yüksək nəticə göstərərək, 100 kq çəkidə I yerə layiq görülüb və nazirliyin diplomu ilə təltif olunub. Eyni zamanda, bu ilin mayında Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində keçiriləcək dünya çempionatına lisenziya qazanıb.



### Etibarsız sayılır

Seyedrahimibolous Nazının (qrup 717A13) tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bu günlərdə Farmakologiya kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru Sevinc Quliyevanı itirdik. Sevinc xanım farmakologiya üzrə yüksək ixtisaslı mütəxəssis olmaqla yanaşı, həm də universitet ideyalarına sədaqəti, həmkarlarına və tələbələrinə qarşı məhəbbəti ilə seçilirdi. O, həm də əməksevər, xeyirxah və ailə tellərinə bağlı olan əsil Azərbaycan xanımı idi.**

# Peşəkarlığı və insani keyfiyyətləri ilə seçilən həmkarımız



Sevinc Tofiq qızı Quliyeva 1963-cü ildə Bakı şəhərində anadan olub. 1971-81-ci illərdə Bakı şəhəri 248 saylı tam orta məktəbdə təhsil alıb. 1981-ci ildə Azərbaycan Tibb İnstitutuna daxil olub və 1986-cı ildə əczaçılıq fakültəsini bitirib. 1986-99-cu illərdə 2 saylı Baza Tibb məktəbində farmakologiya müəllimi işləyib, 2000-ci ildə ATU-nun Farmakologiya kafedrasına assistent, 2006-cı ildə isə bu kafedranın baş müəllimi vəzifəsinə seçilib.

S.Quliyeva 2005-ci ildə Rusiya Federasiyasının V.V.Zakusov adına ET Farmakologiya İnstitutunda «Tipik və atipik neyroleptiklərlə kalsium kanalı inhibitorlarının qarşılıqlı təsir mexanizminin neyrofarmakoloji tədqiqi: beyin dofaminergik sisteminin rolu» mövzusunda dissertasiya müdafiə edərək «Farmakologiya, kliniki farmakologiya» ixtisası üzrə biologiya elmləri namizədi alimlik dərəcəsi alıb.

S.Quliyeva yerli və xarici mətbuatda çap olunmuş 50-yə qədər elmi məqalənin, 1 dərs vəsaiti və 1 metodik vəsaitin müəllifidir. Kafedrada test bankının və tədris proqramlarının hazırlanmasında fəal iştirak edən Sevinc xanım həm də Dövlət İmtahan Mərkəzində rezidenturaya qəbul imtahanları üzrə farmakologiya fənnindən ekspert olub.

Sevinc müəllimənin xatirəsi kafedra əməkdaşlarının, eləcə də universitetimizdə onu tanıyan və sevən hər kəsin qəlbində daim yaşayacaq.

**Allah rəhmət eləsin!**

*Əczaçılıq fakültəsinin dekanlığı,*
*Farmakologiya kafedrasının kollektivi*

### Allah rəhmət eləsin!

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli və universitetin rəhbərliyi Allerqologiya və immunologiya kafedrasının professoru Gülnarə Nəsrullayevaya həyat yoldaşı

**Namiq Nəsrullayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

II Müalicə profilaktika fakültəsinin dekanlığı, Tibbi və bioloji fizika kafedrasının əməkdaşları professor

**Zubeyid Tağıyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Aytən Rzayevaya anası

**Validə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın laborantı Kəmalə Allahverdiyevaya dayısı

**Xəqani Həsənovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0001
Sayı 800